# Elm və təhsilin vəhdəti

## Bakı Dövlət Universitetində AMEA-nın yubileyi qeyd olunub

**Oktyabrın 7-də Bakı Dövlət Universitetində Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**









Əvvəlcə Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş nitqi ilə açan **Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev** 80 illik şərəfli yol keçən AMEA-nın əməkdaşlarını təbrik edib, ölkəmizin elmi potensialının güclənməsi və inkişafı, müstəqil Azərbaycan Respublikasının daha da qüdrətlənməsi naminə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor bildirib ki, bu yubiley bir elmi qurumun deyil, bütövlükdə Azərbaycan elmi, milli düşüncəsi və intellektual irsinin bayramıdır: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AMEA-nın 80 illik yubileyinin qeyd edilməsi barədə 2025-ci il 18 mart tarixli Sərəncamı Akademiyanın ölkəmizdə elmin inkişafı, bu sahədə fəaliyyətin təşkili və yüksəkixtisaslı kadrların hazırlanmasındakı roluna verilən yüksək dəyəri bir daha sübut edir. Bu mühüm sənəddə Akademiyanın ölkəmizdə elmin inkişafı, elmi fəaliyyətin təşkili və yüksək ixtisaslı kadrların hazırlanmasındakı böyük rolu xüsusi vurğulanır. Ümummilli Lider Heydər Əliyev elmin və təhsilin inkişafını həmişə ölkənin gələcəyi ilə birgə dəyərləndirirdi. Ulu Öndərin yaratdığı bu möhkəm elmi və mənəvi təməl üzərində Azərbaycanda elm bu gün özünün yeni inkişaf mərhələsini yaşayır. Bu böyük ənənə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə və ardıcıllıqla davam etdirilir. Onun rəhbərliyi ilə ölkəmizdə elm və təhsil sahəsində fundamental islahatlar həyata keçirilir, elmin idarəetmə mexanizmi təkmilləşdirilir. Elmi nəticələrin innovasiyaya çevrilməsi, elm-universitet-sənaye əməkdaşlığının genişlənməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib".

BDU ilə AMEA arasında bu mənəvi və elmi bağ ötən əsrdə olduğu kimi, bu gün də Azərbaycanda elmin inkişafının hərəkətverici qüvvəsidir. BDU və AMEA eyni elmi məfkurənin, milli intellektual inkişafın sütunlarıdır. Onların qarşılıqlı fəaliyyəti, elmi varislik və əməkdaşlıq ənənəsi bu gün də Azərbaycanda elmin gələcək uğurlarının əsasını təşkil edir".

Sonra çıxış edən **AMEA-nın prezidenti akademik İsa Həbibbəyli** Bakı Dövlət Universitetinin rəhbərliyini, professor-müəllim heyətini və tələbələrini Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi adından salamlayıb. Prezident İlham Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" 18 mart 2025-ci il tarixli Sərəncamının Azərbaycan elminə, aliminə, milli ziyalılarımıza, Elmlər Akademiyasına dövlət səviyyəsində göstərilən diqqətin, qayğının, ehtiramın ifadəsi olduğunu deyən akademik İsa Həbibbəyli bu mühüm dövlət sənədinə görə Akademiyanın çoxminlik kollektivi, tədbir iştirakçıları və gənclər adından Azərbaycan Respublikasının Prezidenti, qalib ölkənin qalib Lideri cənab İlham Əliyevə minnətdarlığını bildirib.

Bu Sərəncamdan irəli gələrək Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi ilə bağlı keçirilən tədbirlər barədə məlumat verən akademik İsa Həbibbəyli ilk növbədə Müzəffər Ali Baş Komandanın "Dəmir yumruğu" ilə işğaldan azad edilmiş torpaqlarda, Qarabağ Universitetində AR elm və təhsil naziri Emin Əmrullayevin iştirakı ilə "Azərbaycan Milli Elmlər Akademiyasında Qarabağnamə ənənəsi və müasir dövr" mövzusunda elmi konfransın keçirildiyini söyləyib. Həmçinin Akademiyanın Naxçıvan Bölməsində, eləcə də Türkiyənin Ankara və İstanbul şəhərlərində Akademiyanın 80 illiyi ilə bağlı tədbirlərin keçirildiyini, bu günlərdə isə AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyevin Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyasının Minskdə keçirilən yığıncağında AMEA-nın yubileyi ilə bağlı təqdimat etdiyini vurğulayıb.

"Bu gün AMEA-nın 80 illik yubileyinin burada keçirilməsi universitetin kollektivinin Azərbaycan elmi ictimaiyyətinə, Azərbaycan Milli Elmlər Akademiyasına hörmət və ehtiramından irəli gələrək yanaşı, həm də əməkdaşlığımıza, elmi əlaqələrimizin dününə, bu gününə və bundan sonrakı inkişafına Bakı Dövlət Universitetinin verdiyi önəmin və diqqətin ifadəsidir", - deyə akademik İsa Həbibbəyli söyləyib.

Son 300 il ərzində bəşəriyyətin elmin inkişafı nəticəsində Sənaye inqilabları yaşadığını deyən akademik İsa Həbibbəyli 2011-ci ildən etibarən isə süni intellektin və rəqəmsal texnologiyaların inkişafı ilə IV Sənaye İnqilabına keçidin baş verdiyini bildirib. Bütün bu dəyişikliklərin ilk növbədə elm faktorundan asılı olduğunu deyən akademik İsa Həbibbəyli vurğulayıb ki, elmdə birinci olan dövlət dünyanın ən inkişaf etmiş ölkəsi sırasında da ilk sırada qərarlaşır və ötən il Nobel mükafatı laureatı Əziz Sancar AMEA-nın Rəyasət Heyətindəki məruzəsində Çini nümunə gətirərək bu fikri təsdiqləmişdir.

AMEA-nın tarixi və inkişaf mərhələləri barədə tədbir iştirakçılarına məlumat verən akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildən yenidən siyasi hakimiyyətə qayıtması ilə AMEA 1993-2003-cü illərdə yenidən təşkilatlanma mərhələsini yaşayıb. Bildirib ki, Prezident İlham Əliyevin ölkəmizə böyük uğurla rəhbərlik etməkdə davam etdiyi illər üzrə isə AMEA iki istiqamətdə inkişaf yolu keçib, 2003-2022-ci illər Akademiyanın modernləşdirilməsi, 2022-ci ildən bu günə kimi isə yeniləşmə və islahatlar mərhələsidir.

Aparılan islahatlardan və yeniləşmə işlərindən danışan akademik İsa Həbibbəyli qeyd edib ki, Prezident İlham Əliyevin Qərbi Azərbaycana Qayıdış siyasətindən irəli gələrək AMEA-da Qərbi Azərbaycan tarixi, Qərbi Azərbaycan folkloru, Qərbi Azərbaycan və Qarabağ əlyazmalarının tədqiqi, Qərbi Azərbaycana qayıdış siyasəti və ermənişünaslıq şöbələrinin fəaliyyətə başladığını bildirib. Bundan əlavə, Prezident İlham Əliyevin "Türk dünyası bizim ailəmizdir" çağırışını əsas götürərək Akademiyanın elmi-tədqiqat müəssisələrində Türk xalqlarının fəlsəfi irsi və müasir fəlsəfəsi şöbəsi, Türk sənət tarixi və mədəni irsi şöbəsi, Türk əlyazmalarının tədqiqi şöbələrinin yaradıldığını, eləcə də bu günə kimi türk xalqları ilə bağlı fəaliyyət göstərən şöbələrin təkmilləşdirildiyini, Türkologiyanın diqqət mərkəzində saxlanıldığını vurğulayıb.

AMEA-da dövlət siyasətinə uyğun olaraq, süni intellekt və rəqəmsal texnologiyaların inkişafı istiqamətində görülən işlərdən danışan akademik İsa Həbibbəyli qeyd edib ki, AMEA-nın Rəyasət Heyəti aparatının "Elektron Akademiya" şöbəsi tərəfindən Akademiyada rəqəmsallaşma, süni intellekt texnologiyalarının tətbiqi, elektron xidmətlərin genişlənməsi istiqamətində bir çox yeniliklərə və uğurlara imza atılıb və bu günlərdə yaranmış yeni texnoloji reallıq nəzərə alınaraq şöbənin adı Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər şəklində dəyişdirilmişdir.

Eyni zamanda, AMEA-da gənc tədqiqatçılarla bağlı aparılan işlərdən danışan natiq bildirib ki, bu günlərdə "Gənclər Akademiyası" yaradılıb və AMEA-nın yekun yubiley tədbirində ictimaiyyətə təqdim olunacaq. Eləcə də "Gənc tədqiqatçı" jurnalının nəşri biri ingiliscə olmaqla, ildə 4 dəfəyə yüksəldilib.

Akademik İsa Həbibbəyli, həmçinin AMEA-nın beynəlxalq təşkilatlarla elmi əlaqələri barədə məlumat verib və Azərbaycan dövlətinin dünya elmi arenasında maraqlarının qorunduğunu söyləyib.

"Elmin inkişafının ən böyük donorlarından biri ali təhsillə Akademiyanın qarşılıqlı əlaqəsidir. Biz, Akademiya, Elm və Təhsil Nazirliyi, universitetlər bir məqsədə, Prezident İlham Əliyevin müəyyən etdiyi elm siyasətinin həyata keçirilməsinə, elmi-texniki tərəqqinin, rəqəmsal texnologiyaların və süni intellektin inkişaf etdirilməsi ilə ölkəmizin ümumi inkişafına xidmət edirik. Birlikdə layihələrin həyata keçirilməsi və əməkdaşlığımızın genişləndirilməsi ölkəmizi və elmimizi irəli aparacaq", - deyə akademik İsa Həbibbəyli vurğulayıb və BDU-nun rəhbərliyinə, professor-müəllim heyətinə və kollektivinə uğurlar arzulayıb.

**Milli Məclis sədrinin müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov** çıxışında bildirib ki, AMEA Azərbaycanın zəka yükünü daşıyan vacib elmi qurum kimi XX yüzil içərisində xalqımızın milli ruhunun yüksəlişində müstəsna rol oynayıb.

Akademik Rafael Hüseynov AMEA-nın böyük tarixi sınaqlardan keçdiyini, bir sıra alimlərin siyasi repressiyaların qurbanı olduğunu söyləyib. O, AMEA-nın taleyində və tarixində Ulu Öndər Heydər Əliyevin əvəzsiz rolundan bəhs edib. Vurğulayıb ki, hazırda bu yol Heydər Əliyev siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" 2025-ci il 18 mart tarixli Sərəncamı Azərbaycan elminə, Akademiyaya verilən yüksək qiymətin ifadəsidir.

Sonra çıxış edən **elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli** qeyd edib ki, tarix boyu Azərbaycan elminə töhfə vermiş görkəmli alimlər olmuşdur və Azərbaycan elmi dünya elmi ilə paralel olaraq inkişaf etmiş, dünya elminə töhfələr vermişdir.

Nicat Məmmədli bildirib ki, universitetlərlə elmi-tədqiqat müəssisələrinin sıx şəkildə işləməsi, nəticələrin tətbiqi üçün geniş işlər görmək lazımdır.

Tədbirdə, həmçinin **akademik Nizami Cəfərov, BDU-nun Faydalı qazıntılar kafedrasının müdiri akademik Vasif Babazadə, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Arzu İsgəndərzadə** çıxışlarında AMEA-nın ölkədə fundamental tətbiqi və humanitar elmlərin, milli mədəniyyətimizin, ədəbiyyatımızın, dilimizin inkişafında, milli-mənəvi dəyərlərimizin qorunmasında müstəsna xidmətlərini vurğulayıblar.